# ƏDƏBİYYATŞÜNASLIQ

## «DASTANİ-ƏHMƏD HƏRAMİ»DƏ FİZİKİ TƏRBİYƏ VƏ QƏHRƏMANLIQ MOTİVLƏRİ

**MOBİL ASLANLI HUNTÜRK**
*Bakı Dövlət Universiteti*

XIII əsr türkdilli poeziyamızın möhtəşəm mənəvi abidələrindən biri kimi ədəbiyyat tariximizdə «Dastani-Əhməd Hərami» poemasının özünəməxsus yeri vardır.

Məqsədimiz əsərin təşəkkül tarixini, onun ideya-mövzu mənbələrini, bədii sənətkarlıq xüsusiyyətlərini, dini-fəlsəfi istiqamətləri və s. aspekləri deyil, onun əsasən qəhrəmanlıq motivləri ilə, ələlxüsus də fiziki-cismani yetkinlik, fiziki kamillik və fiziki tərbiyə motivləri ilə bağlı problemlərini araşdırmaqdır.

İdeya-fəlsəfi məzmunu, müntəricəsi, məfkurəsi, dil və üslub əlamətlərinə görə xalq ruhunu ifadə edən əsərdə müəllif əsasən iki canişin bir quldurbaşı olan Əhməd Hərami və şir ürəkli qoçaq Güləndam obrazlarını yaratmaq məqsədi güdmüşdür. Əsərdə addımbaşı şərə, zülmə, riyakarlığa, ədalətsizliyə və rəzalətə qarşı kəskin nifrət, mərd, ləyaqətli insana qarşı dərin məhəbbət, sonsuz saygı və rəğbət hissinin mövcudluğu duyulur. Odur ki, poemada müdhiş, bir oğru olan Hərami xəbisliyi, əzazilliyi təmsil edirsə, Güləndam şərəf və ləyaqət, hünər və cəsarət rəmzi kimi təqdim olunur.

Əsərdə yolkəsən, rəzil Həraminin zahirən iri cüssəli vücudu adamı zəhmə gətirən yekəpər əbləh kimi təqdim edilsə də, lakin elmin bir sıra sahələrini mükəmməl bilən, lazımi səviyyədə dünya görüşünə malik bir fərd kimi təqdim edilir:

Özü gürbüzdürür yalak bahadır,
Bahadırlıq yolunda key bəhadır,
Bilirdi sehr elmindən bəğayət,
Nücum elmində də qadirdi qayət.
Gər əfsun oxuyub bir gəz üröydi
Oluq dəm ayı gögdən endirəydi.
Əli Bu Sina elmindən bilirdi,
Şəhabəddinə ol hizmət qılırdı (1, 16-17).

Poemada diqqəti cəlb edən əsas cəhətdərdən biri el-obaya, yurda qənim kəsilən qaçaqmalçılıq edib, yol kəsən oğurluq edib, evləri viran qoyan Əhməd və onun cəlali dəstəsinin üzvlərini dinc əhalini heyrətli görkəmləri ilə vahiməyə salan iri, qıvraq bədənli, tükənməz fiziki gücə malik olmalarıdır. Xüsusilə bu quldur dəstənin önündə duran qəddar, rəzil əməllərin baş ifaçısı, mənfi qəhrəman kimi təsviri göstərilən Əh-

mədin müdhiş görkəmi, gərgədan gücü, timsah zəhmi, bilavasitə onun fiziki möhkəmliyinə, fiziki-cismani yetkinliyinə dəlalət edir. Odur ki, əsərdə dələduz, amansız kimi təqdim olunan Əhməd Hərami, o, həm də eyni zamanda igid və hünərvər bir şəxs olduğu da nəzərə çatdırılır:

Qılınc salsa bin ərə təpinəydi,
Qağan aslan kibi kim çapınaydı.
Demişlər adına Əhməd Hərami,
Çavı dolmuş idi illər təmami.
İgin gürbüzlər idi ol ərənlər,
Onları qan qaşanırdı görənlər (1, 17).

Dastanda tərəflərin mübarizəsində, istər Güləndamın üsyankarlığı, istərsə də Hərami dəstəsinin təcavüzü nəticəsində qarşı-qarşıya gələn rəqiblərin müxtəlif fiziki alət və hərbi əsləhlərdən bacarıqla istifadə edilməsi də vurğulanır. Əsərin bütün hekayətlərində bir-birinə həmlə edən döyüşçülərin rəqiblərini məhv etmək üçün istifadə etdikləri qılınc, ox-yay, nizə, salaq (toppuz, gürz), salqın (sapan), cəbə (zireh), hərbə (süngü), kiş (oxqabı) yaraq və s. kimi müxtəlif əsləhlərin adları çəkilir. «Yalvarış» hekayətində ibtidai, sadə və gərəkli silah növü olan sapand barədə oxuyuruq:

Cəfa imiş bu dünyanın vəfası,
Ki, bin yaxşı işi dəgməz yamanə.
Görün bu çərxi-gərduni ki, bəni
Sapana qoyuban atdı yabanə (1, 49).

Əsərdə qeyd edilir ki, Əhməd Hərami adlı bir quldurbaşı, yolkəsən, soyğunçu yeni bir «səfərə» başlayır. Həmin uzun yolçuluğa Krımdan Bağdada qədər ərazi daxil olur. Səfər daxilində öz acgözlüyünə, tamahkarlığına sadiq qalan Əhməd Hərami yolüstü varlı bir sultan xəzinəsinə basqın edir.

Bağdad sultanı Şəhinşahın topdağıtmaz malikanəsindəkindəki vardövlətini silib-süpürüb aparmaq hərisliyi ilə diribaş qoçularını şövqə gətirmək üün onları cürətli olmağa təhrik edən Əhməd Hərami dəstə üzvülərinə xitabən müraciət edir:

Kim ol sultanın adıymış Şəhinşah
İkən çox mali varmış oldum agah.
Kilidin açalım, malın alalım,
Cəhanda biz ana bir iş qılalım.
Bənim hər yerdə əfsunum yazılur,
Kilidlər açılır, qapu pozulur.
Nə durursuz, durun, bir-bir quşanın,
Nə qayırın, nə qorxun, nə üşənin.
Adıdır dünyada qalan kişinin,
Əgər erkən ola və gər dişinin (1, 18).

Poemada göstərildiyi kimi, Əhməd Hərami və onun dəstə üzvləri xalqın hörmətini qazanmış, el-obaya möhkəm arxa olan Koroğlu dəlilərindən fərqli olaraq öz qüvvə və bacarıqlarını, igidliklərini bəd əməllərə yönəldirlər. Qoçaq və cəsur olduqlarına baxmayaraq mənfur işlər görürlər. Elə bu həris məqsəd də onları Bağdad sultanı Şəhinşahın xəzinəsinə basqına gətirib çıxarır:

Şu gənc arslan kibi xubi-zəmanə,
Qaqıdı xişm ilə oldu divanə.
Şoluqdəm belinə qılınc quşandı,
Bunlardan qorxdu və nə heç üşəndi...

Yalın eylədi ol hindi qılıcı,
Görün nə qılur ol fitnə qılıcı (1, 21-22).

Həmin sultanın gözəllikdə gözəllər içində ad çıxarmış cəsur, qorxmaz qəlb sahibi olan bir qızı vardı. Adına Güləndam derdilər. Əhməd Həraminin yeni soyğunçuluq planından qəfil xəbər tutan Güləndam heç kəsə heç nə demədən qılıncına qurşanıb bu quldur dəstəsinin dalınca gedir.

Xəlvəti küncə çəkilib gizlicə yağıları izləyən Güləndam yüksək taktiki ustalıqla müxtəlif hərbi fəndlər işlədərək quldur dəstəsinin başını kəsib məhv etdiyi azmış kimi, hətta Hərami kimi cüssəli bir pəhləvanı yaralayır.

Başına çıxardı, kim baxaydı andan,
Boğazından çalar ol güli-xəndan.
Fələk peymanəsin ol dəmdə içdi,
Başı uruldu anın taşra düşdi.
Biri dəxi irşidi ol şərabə,
Nə şərabdır ömür verdi xərabə.
Macal vermədi anı dəxi çaldı,
Həman dəm gögdəsindən başın aldı.
Qılınc ilə çün anı dəxi yıxdı,
Sürüdi gögdəsin taşra buraxdı (1, 24).

Hadlisələrin sonrakı gedişində iş elə gətirir ki, Güləndamın atası qızını kasıb olmasına baxmayaraq, igid cürətli bildiyi Həramiyə ərə verir. Poemanın naməlum müəllifi Əhməd Hərami obrazının tam əksinə olaraq Güləndamı incə, zərif boyalarla mənəvi-əxlaqi cəhətdən bitkin bir surət kimi verir. Güləndam qəhrəmanlıq eposlarımızdakı cəngavər qadınlar kimi məharətlə ox atır, qılınc toqquşdurur, şahbaz atların yalmanına yataraq cəngə girir, Əhməd Hərami kimi bir sehrigar bahadıra həm cismani, həm də mənəvi qələbə çalır. Lakin təvazökarlığı sayəsində ərinin quldur olduğunu atasına bildirmir.

Əsərdə göstərilir ki, Əhməd Hərami Güləndamla evlənsə də, lakin ondan intiqam almaq fikri onun başından çıxmır. Bunu duyan Güləndam ondan üz döndərərək qaçır və təsadüfən Xoca Rüstəm adlı bir igidin dəstəyi sayəsində Əhməd kimi müdhiş bir quldurun əlindən qurtulur:

Var idi bunların içində bir ər
Qatı gürbüz bahadur idi sərvər.
Atı yögrük idi, kəndi yaraqlu,
Ürəkli idi ol gözi çıraqlu.
Xətayi yay əlində, ox dolu kiş,
Bahadurluq ana olmuş idi,
Adına Xoca Rüstəm derlər idi (1, 50).

Sonrakı taleyi Güləndamı Şiraz sarayının şahzadəsi Güləfruz şahla qarşılaşdırır. Onlar evlənib xoşbəxt həyat sürürlər. Daim təlaş və qorxu içərisində yaşayan Güləndam Əhməd Həramidən qorunmaq üçün 40 pilləkənli bir saray tikdirir, iki arslan və 40 igid keşikçinin mühafizəsində yaşayır. Bu müddət ərzində daima Güləndamı təqib edən həmin yağı nəhayət Şiraz sarayına gəlib çıxır. Əhməd Hərami keşikçiləri öldürərək dinc həyat sürən həmin biçarə xanımın qəflətən otağına girir:

Güləndəma dedi kim, nə durursan,
Bən Əhməd Həramiyi kim görürsən.
Əlimdən can qaçan qurtararsan sən,
Di imdi eylə başun çarəsin sən.
Doqquz yoldaşımın kəsdin başını,
Həlak edib bitirdin həm işini.

Səni bən dəxi alayın, gedəyin,
Nə кim sən bənə etdün, bən edəyin.
Gözünə qarşu bunı öldürəyin,
Bənə etdigin işi bildirəyin (1, 78).

Ağıllı və cəsarətli olan Güləndam öz sədaətinin кeşiyində çox oyaq olur. Əhməd Hərami ilə ölüm-dirim savaşına girir. Cəsur və igidliyi sayəsində heç кimin həyatını təhlüкəyə atıb, onları кöməyə çağırmır. Bu tədbirli, vəfalı türк xanımı Həraminin onun əri Güləfruxu öldürəcəyindən qorxaraq, ölüm ayağında olsa da onu oyatmır. Bütün cəsarətini toplayaraq Əhməd Həramini 40 pilləкəndən itələyib yıxaraq onu məhv edir:

Gəlirlər, nərdibanın çaq başinə,
Qulaq ur sən Güləndamın işinə.
Təvəккül eylədi ol dəm həqə çox,
Baxar çevrəyə, кimsədən mədəd yox.
Yüzün döndi, həqə qıldı niyazı,
Münacat eylədi, dinlə bu yazı:
Sığındım sən кərimü girdigarə
Kərim, işi кərəm pərvərdigarə (1, 80).

Qeyd etməliyiк кi, «Dastani-Əhməd Hərami» əsəri orta əsrlər Azərbaycan xalqının yaşayışı mühitində geniş təşəккül tapmış fiziкi oyunlar, təmrinlərin, döyüş və qovğa səhnələrin canlı təcəssümünü o dövr üçün ifadə edən dolğun bir əsərdir. Odur кi, xalqımızın bu səpgidə qələmə alınmış mənəvi abidələrinin təbliğ və təşviqinin gənc nəsillərin qəhrəmanlıq ruhunda tərbiyə olunması, habelə onların fiziкi təкmilləşməsi, fiziкi mədəniyyət səviyyəsinin yüкsəldilməsi işində mühüm əhəmiyyət кəsb edər.

## ƏDƏBİYYAT

1. «Dastani-Əhməd Hərami». Bakı: Gənclik, 1978, 120 s.

## МОТИВЫ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ И ГЕРОИЗМА В «ДАСТАНИ-АХМЕД ХАРАМИ»

**МОБИЛ АСЛАНЛЫ ГУНТЮРК**

**РЕЗЮМЕ**

Статья посвящена анализу вопросов физической культуры, совершенству и мотивам героизма в духовном памятнике нашего народа – поэме «Дастани-Ахмед Харами». В ней подчеркивается высокая физическая подготовка героя Харами и членов его отряда.

## THE MOTIVES OF PHYSICAL TRAINING AND HEROISM IN «DASTANI-AHMAD HARAMIH”

**MOBIL ASLANLI HUNTURK**

**SUMMARY**

This article deals with the analysis of the physical culture, perfection and the motives of heroism in the spiritual monument of our nation – the poem of «Dastani-Ahmad Haramih”. It highlights the high physical readiness of Haramih and his followers.